1_Layout 1 29.03.2021 19:19 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 6 (596)

31 mart 2021-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşada Cıdır düzündə bayram tonqalı alovlandırıblar.

Sonra dövlətimizin başçısı müraciət edib. **AZƏRTAC** müraciəti təqdim edir:

- Əziz bacılar və qardaşlar, mən sizin hamınızı Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm! Bütün Azərbaycan xalqına cansağlığı, xoşbəxtlik arzulayıram!

Biz bu il Novruz bayramını Şuşada, Cıdır düzündə qeyd edirik. Bu, tarixi hadisədir. 2004-cü ildən başlayaraq, hər il mən Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edərkən deyirdim ki, biz öz doğma torpaqlarımıza qayıdacağıq. Deyirdim ki, biz ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik. Deyirdim ki, biz Novruz bayramını torpaqlarımız işğaldan azad olunandan sonra Qarabağda qeyd edəcəyik və bu gün gəldi. Bu gün biz Novruz bayramını qədim şəhərimizdə, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada qeyd edirik. Bu, tarixi hadisədir. Bu, böyük xoşbəxtlikdir. Allah Azərbaycan xalqının dualarını eşitdi. Hər il Novruz bayramı ərəfəsində hamımız yəqin ki, fikirləşirdik, bir-birimizə deyirdik, inşallah, gələn il Novruz bayramını Qarabağda qeyd edək, gələn il Novruz bayramını Şuşada qeyd edək və bu gün gəldi. 28 ildən sonra biz Şuşaya qayıtdıq. Novruz bayramını Cıdır düzündə qeyd edirik, tarixi ədaləti bərpa etmişik.



Noyabrın 8-də Şuşanın azad olunması ilə bağlı müjdəni Azərbaycan xalqına verərkən demişdim ki, Şuşa, sən azadsan! Bu gün azad Şuşada biz öz milli bayramımızı – Novruz bayramını qeyd edirik. Şuşa 28 il əsarətdə idi. 28 il mənfur düşmən tərəfindən dağıdılırdı, məhv edilirdi. Şuşanın tarixi siması dağıntılara məruz qalırdı. Düşmən Şuşanı erməniləşdirmək istəyirdi. Şuşada Azərbaycan xalqının irsini silmək istəyirdi. Ancaq buna nail ola bilmədi. Bəli, Şuşa dağıntılara məruz qaldı, Şuşada tarixi abidələrimiz mənfur düşmən tərəfindən dağıdıldı. Ancaq Şuşa əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, Azərbaycanın milli ruhunu qorudu və bu gün Şuşada olarkən bir daha bunun canlı şahidi oluruq. Şuşa Azərbaycan xalqının ruhunu qoruya bildi və bizi gözləyirdi. Biz də gəlməli idik və gəlmişik. Ancaq gəlmək üçün güc toplamalı idik, gəlmək üçün hazırlıq işləri aparılmalı idi. Bütün istiqamətlər üzrə hazırlıq işləri aparılmalı idi və aparılırdı. Biz ölkəmizin inkişafını təmin etməli idik. Xalqımızın birliyini təmin etməli idik. Vətəndaş müharibəsindən çıxmış ölkə üçün, xalq üçün bu, o qədər də asan məsələ deyildi. Vətəndaş müharibəsindən sonra bu günə qədər ölkədə gedən proseslər xalqımızı vahid ideya uğrunda, vahid amal uğrunda, torpaqlarımızın azad edilməsi amalı uğrunda birləşdirdi. Biz bu milli birliyi, milli həmrəyliyi təmin edə bildik. Bu, olmasa idi, bu Qələbə də olmayacaqdı.

Biz Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri beynəlxalq müstəvidə dünya ictimaiyyətinə çatdırmalı idik və çatdıra bildik. Beynəlxalq təşkilatlarda fəal işləyirdik və bizə sərf edən, həqiqəti əks etdirən, beynəlxalq hüququ əks etdirən, ona əsaslanan vacib qərar-qətnamələri qəbul etdirə bildik. Bu, Qələbəmizin hüquqi əsası idi, haqq-ədalətin bərpasının hüquqi əsası idi. Biz iqtisadi güc toplamalı idik və topladıq. Son illər ərzində Azərbaycan qədər sürətlə inkişaf edən ölkə bəlkə də dünyada yoxdur. Biz hərbi güc toplamalı idik və bu istiqamət birinci dərəcəli vəzifə idi. Təsadüfi deyil ki, mənim prezidentlik dövrümdə hərbi xərclər hər zaman birinci yerdə idi və bunu mən deyirdim, bəyan edirdim ki, biz hərbi xərclərimizi bundan sonra da artırmalıyıq. Biz müharibəyə hazırlaşmalıyıq, hazırlaşırıq. Açıq deyirdim bütün dünyaya və deyirdim ki, əgər düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz düşməni qovacağıq. Belə də oldu.

Biz güclü ordu yaratmışıq. Peşəkar ordu yaratmışıq. Qəhrəman ordu yaratmışıq. Hərbçilərimiz ən yüksək qiymətə layiqdirlər. Biz müharibə dövründə şəhidlər vermişik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Allah onların yaxınlarına səbir versin. Biz Şuşanı qan tökərək azad etmişik, Şuşa uğrunda ciddi döyüşlər gedirdi. Laçın dəhlizi boyunca işğalçıların qalıqları səpələnmişdi, yüzlərlə, bəlkə də minə qədər işğalçı Şuşa döyüşlərində məhv edildi. Hərbçilərimiz sıldırım qayalardan qalxaraq, dərədən-təpədən, Xocavənd meşələrindən, cığırlardan keçərək yüngül silahlarla Şuşaya gəldilər. Yüngül silahlarla, tapançalarla, süngü-bıçaqla mübarizə apardıq. Amma bizə qarşı burada toplardan, tanklardan istifadə olundu. Amma düşmən bizim gücümüzü gördü, iradəmizi gördü, milli ruhumuzu gördü və məğlub oldu. Şuşanın azad edilməsi Vətən müharibəsində xüsusi yerə malik olan hadisədir. Şuşa bizim hədəfimiz idi və biz bu hədəfə doğru gedirdik. Şuşaya qədər azad edilmiş bütün torpaqlarda Azərbaycan Ordusunun yerləşməsi Şuşanın azad olunmasını da şərtləndirmişdi. Cəbrayıl rayonu, Suqovuşan, Hadrut, Xocavənd rayonunun böyük hissəsi, Zəngilan, Füzuli, Qubadlı rayonları, Laçın rayonunun cənub hissəsi, Kəlbəcər dağları, Murov dağı və ondan sonra Şuşa. Müharibə zamanı 300-dən çox kənd və şəhər azad edildi, düşmən məcbur oldu, diz çökdü, təslim oldu və noyabrın 10-da kapitulyasiya aktına imza atdı.

Müharibənin ilk günlərindən mən demişdim ki, düşmən bizə tarix versin, düşmənin rəhbəri tarix versin, nə vaxt bizim torpağımızdan rədd olur və biz müharibəni dayandırmağa hazırıq. Yenə də sözümdə durdum, bizə tarix verilən kimi, kapitulyasiya aktı imzalanan kimi müharibə dayandı və biz bir güllə atmadan, bir itki vermədən Ağdam, Kəlbəcər və Laçın rayonlarına da qayıtmışıq. Beləliklə, ərazi bütövlüyümüzü bərpa etdik. Yenə də deyirəm, biz hazırlaşmalı idik, Şuşa bizi gözləyirdi. Amma biz elə gəlməli idik ki, bu məsələni birdəfəlik həll edək.

Son illər ərzində mən həm çıxışlarda, həm müsahibələrdə dəfələrlə demişəm ki, bizə məsələnin yarımçıq həlli lazım deyil. Bu, nə deməkdir, Azərbaycan xalqı yəqin ki, gözəl başa düşür. Mən demişdim ki, hər şeyi vaxtında etmək lazımdır. Nəyi, nə vaxt, necə etmək lazımdır, bilirəm. Mənim üçün torpaqların azad edilməsindən daha ümdə vəzifə heç vaxt olmamışdır. Bütün prezidentlik dövrümü mən buna həsr etmişəm. Hər bir qərarın arxasında bu məqsəd, bu hədəf dayanmışdı - bu addım bizi qələbəyə yaxınlaşdıracaqmı, yoxsa yox. Deyirdim ki, hər birimiz hər gün qələbəni yaxınlaşdırmalıyıq. Mənim çıxışlarım var, onlar tarixdə qalır. Hər gün hər birimiz qələbəni yaxınlaşdırmalıyıq. Yaxınlaşdırdıq, hazırlaşdıq, gəldik düşməni məğlub etdik, məhv etdik. Gəlmişik və burada dayanmışıq. Müzəffər Ordunun Ali Baş Komandanı kimi dayanmışam qədim Azərbaycan torpağında və heç kim bundan sonra bizi buradan çıxara bilməz.

Şuşa bizim qədim şəhərimizdir. Erməni təbliğatı, saxta alimlər, fırıldaqçı siyasətçilər, beynəlxalq dairələr nə qədər desələr də xeyri yoxdur, tarix var. Pənahəli xan Şuşanın təməlini qoydu, Şuşanı tikdi, qurdu. Biz isə Şuşanı əsarətdən çıxardıq və xalqımıza qaytardıq, dövlətimizə qaytardıq. Şuşa qədim Azərbaycan şəhəridir, həmişə belə olub. Son 28 il ərzində mənfur düşmən nə qədər çalışsa da, Şuşanın Azərbaycan ruhunu, Azərbaycan görkəmini dəyişdirə bilməyib. Bəli, evlər sökülüb, tarixi abidələr sökülüb, məscidlər sökülüb, bir neçə eybəcər bina tikilib. Faktiki olaraq burada heç bir tikinti aparılmamışdır. Ancaq sovet vaxtından qalan o "xruşşovkalarda" məskunlaşmış 2 minə yaxın erməni yaşayırdı, onların da böyük hissəsi hərbçilər idi, onların ailələri idi. Əgər bu, erməni şəhəri idisə, niyə ermənilər gəlib burada yaşamadılar? Çünki ermənilərin tarixi yoxdur burada. Əgər erməni şəhəridirsə, niyə belə bərbad günə qoyublar? Niyə talayıblar Şuşanı, niyə 28 il ərzində bərpa etməyiblər? Bəs, hanı bunların xeyriyyəçiləri? Deyirdilər ki, xeyriyyəçilər bunu etdilər, onu etdilər, ora pul verdilər, bura pul verdilər. Hər il marafonlar keçirirdilər, on milyonlarla dollar pul yığırdılar. İndi bilinir ki, o pullar keçmiş rəhbərliyin cibinə gedirdi. Mən azad edilmiş torpaqlara dəfələrlə gəlmişəm. Burada olan səfalət bəlkə də dünyanın heç bir yerində yoxdur. Bəs, nə ediblər onlar? Hamısı yalan idi, saxta idi, tarixi necə saxtalaşdırıblar, reallığı da elə saxtalaşdırıblar. Onların şəbəkələri dünyanın müxtəlif paytaxtlarında fəaliyyət göstərir, saxta məlumat ötürür və bu saxta məlumat ətrafında sonra müzakirələr gedir və olmayan şeyləri reallıq kimi qələmə verirdilər.

Biz Şuşanı bərpa edəcəyik, mütləq bərpa edəcəyik. Artıq bərpa işlərinə start verildi. Bu gün Şuşada olarkən artıq verdiyim tapşırıqların yerinə yetirilməsi ilə tanış oluram. Biz nəinki Şuşanı, azad edilmiş bütün torpaqları bərpa edəcəyik. Quruculuq işləri başlamışdır, infrastruktur layihələrinə start verilmişdir. Ziyanın hesablanması aparılır, şəhərlərin baş planları hazırlanır. Birinci növbədə, Ağdam şəhərinin və Ağdam rayonunun bütövlükdə baş planı hazırlanır, onun ilkin versiyası mənə təqdim edildi. Mənim tapşırıqlarımı nəzərə almaq şərtilə indi bunun üzərində iş gedir və yaxın gələcəkdə baş plan təsdiq olunacaq. Ondan sonra bərpa işləri azad edilmiş bütün torpaqlarda başlanacaq. Ermənilər 30 il bizim torpaqlarımızı dağıdıblar. Biz isə bu torpaqları bərpa edəcəyik, çünki bu torpaqların sahibləri bizik - Azərbaycan xalqıdır.

Şuşada olarkən insan Azərbaycan xalqının böyüklüyünü bir daha dərk edir. Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq. Biz hətta o satqınlığı, o xəyanəti edən AXC-Müsavat cütlüyünün mənfur liderlərinə layiq olduqları cəzanı verməmişdik. Halbuki onlar istənilən cəzaya layiqdirlər. Biz bu vəziyyətlə barışmadıq və mən dəfələrlə deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaq. Siyasi, iqtisadi, hərbi, mənəvi istiqamətlərdə, gənc nəslin tərbiyə edilməsi istiqamətində məqsədyönlü siyasət aparılırdı və elə gənc nəsil yetişdi ki, canını fəda etdi torpaq uğrunda. Elə gənc nəsil yetişdi ki, öz qanı-canı bahasına torpağımızı düşmənin əlindən aldı. Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər. İlk növbədə, biz onlara borcluyuq, bütün Azərbaycan xalqına borcluyuq. Bütün xalqımız bu Qələbəni yaxınlaşdırırdı və bütün amillər birləşərək bu müharibənin nəticələrini şərtləndirdi.

Bizim müharibəmiz - İkinci Qarabağ müharibəsi bu gün dünyanın aparıcı ölkələrinin hərbi məktəblərində öyrənilir. Biz XXI əsrin müharibəsini aparmışıq, düşməni məhv etmişik. Erməni ordusu yoxdur, biz onu məhv etmişik. Bu gün Novruz bayramını Cıdır düzündə qeyd edərkən qürur hissi ilə deyirəm: "Şuşa sən azadsan!", "Şuşa Azərbaycandır!", "Qarabağ Azərbaycandır!"

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov martın 5-də Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, general Nadim Razanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Strateji müttəfiqlər olan iki dövlət arasında əlaqələrin zəngin tarixə malik olduğunu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu münasibətlərin daha da genişlənməsinə hər zaman xüsusi önəm verdiyini diqqətə çatdıran daxili işlər naziri V.Eyvazov beynəlxalq aləmdə və regional təşkilatlar çərçivəsində dost və qardaş ölkə olan Pakistanın Azərbaycanın mövqeyini hər zaman birmənalı şəkildə dəstəklədiyini vurğulayıb.



Dövlət başçılarının siyasi iradəsi nəticəsində son illər bütün sahələrdə inkişaf və tərəqqinin müşahidə olunduğunu qeyd edən nazir V.Eyvazov, iki dost ölkənin Daxili İşlər nazirlikləri arasında da sıx münasibətlərin mövcudluğundan, imzalanmış beynəlxalq hüquqi sənədlər əsasında transmilli mütəşəkkil cinayətkarlıqla, xüsusilə narkotiklərin qanunsuz dövriyyəsinə, qeyri-leqal miqrasiyaya və insan alverinə qarşı mübarizədə birgə səylərin göstərilməsindən, əməliyyat məlumatlarının mübadiləsindən məmnunluğunu bildirib, qarşılıqlı səfərlərin birgə işbirliyinin daha da dərinləşdirilməsinə öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

Səmimi qəbula görə təşəkkür edən general Nadim Raza dövlətlərimiz və xalqlarımız arasında dostluq, qardaşlıq münasibətlərinin həqiqətən dərin köklərə malik olduğunu önə çəkərək xüsusilə son illər ərzində bütün sahələrdə əlaqələrin daha sürətli inkişafından, ölkəmizdə yaradılmış sabitlik və əmin-amanlıqdan, respublikamızın, onun paytaxtının dünyanın ən təhlükəsiz dövlət və şəhərlərindən biri olmasından məmnunluğunu bildirib.

Səmimilik və dostluq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

2_Layout 1 30.03.2021 10:56 Page 1



# 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR



1813-cü və 1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələri ilə Azərbaycan xalqının parçalanması və tarixi torpaqlarımızın bölünməsinin əsası qoyulub, sonrakı dövrdə isə həmin torpaqların özgəninkiləşdirmə prosesinə başlanılıb.

Qısa müddətdə ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilib.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail olublar. Süni ərazi bölgüsü, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması, Azərbaycan xalqına qarşı soyqırımı siyasətinin həyata keçirilməsinə şərait yaradıb. Azərbaycan torpaqlarında "böyük Ermənistan" ideyasını reallaşdırmaq üçün erməni xalqının tarixinin saxtalaşdırılmasına başlanılıb. Azərbaycanın və ümumən, Qafqazın tarixinin təhrif olunması bu fəaliyyətin mühüm tərkib hissəsini təşkil edib.

"Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı kütləvi qırğınlar həyata keçiriblər. Ermənilərin Bakıdan başlanan kütləvi qırğınları Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə edib. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirilib.

Birinci Dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər bu dəfə öz mənfur niyyətlərini bolşevik bayrağı altında reallaşdırmağa çalışıblar. 1918-ci ilin mart ayından etibarən Bakı Kommunası tərəfindən əksinqilabçılarla mübarizə şüarı altında Bakı quberniyasının azərbaycanlılardan təmizlənməsi planı gerçəkləşdirilib.

Həmin günlərdə Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan Şamaxı, Quba və digər şəhər və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilib, yaşayış məntəqələri dağıdılıb, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilib. Sonrakı dövrlərdə daha da azğınlaşan erməni millətçiləri qeyri-insani əməllərini davam etdirib, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçiriblər.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilib və Nazirlər Şurası iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul edib.

Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırıb. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradılıb.


QUBA SOYQIRIMI MEMORİAL KOMPLEKSİ

1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilib. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı prosesinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi olub. Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra həmin proses dayandırılıb, baş verənlərin sona qədər təhqiq edilməsinin və ona müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alınıb. Yalnız 80 il sonra - 1998-ci il martın 26-da Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanda həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilib və 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib. Fərmanda deyilirdi: "Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir".

Ümummilli Lider Heydər Əliyev 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar deyib: "Xalqımıza qarşı törədilmiş soyqırımı haqqında həqiqətləri real faktlar, dəlillər əsasında dünya dövlətlərinə, nüfuzlu beynəlxalq təşkilatlara çatdırmaq, saxta erməni təbliğatı nəticəsində formalaşmış yalan təsəvvürləri dəyişdirmək, ona hüquqi-siyasi qiymət verdirmək nə qədər çətin olsa da, şərəfli və müqəddəs bir iş kimi bu gün də, gələcəkdə də davam etdirilməlidir. Bu, soyqırımı qurbanlarının xatirəsi qarşısında indiki nəslin müqəddəs borcudur".

Son illər bu sahədə aparılmış araşdırmalar sayəsində çoxlu sayda yeni fakt və sənədlər toplanıb. Quba şəhərində tapılan kütləvi məzarlıq bu faciənin qanlı epizodlarından biridir. 1918-ci ilin aprel-may aylarında yalnız Quba qəzasında 167 kənd tamamilə məhv edilib. Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkar edilib.

2009-cu ildə Nazirlər Kabinetinin sərəncamı ilə "Quba rayonunda kütləvi qətl qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə dair tədbirlər planı" təsdiq edilib, aşkar olunmuş kütləvi məzarlığın yerləşdiyi ərazidə monumental xatirə kompleksinin ucaldılması və abadlıq işlərinin aparılması qərara alınıb. 2007-ci ilin iyulundan etibarən Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən kütləvi məzarlıqda geniş tədqiqat işlərinə başlanılıb, 2008-ci ilin sentyabrında isə tədqiqat işləri başa çatdırılıb. Tədqiqat nəticəsində məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdikləri soyqırımı ilə bağlı olduğu müəyyən edilib. Tədqiqat işlərinin nəticəsi olaraq məzarlıqda müxtəlif yaş qruplarına aid 400-dən çox insan cəsədinin qalıqları aşkar edilib. Onlardan 50-dən çoxu uşaqlara, 100-dən çoxu qadınlara, qalanları isə əsasən yaşlı kişilərə aiddir. Müəyyən edilib ki, məzarlıqda azərbaycanlılarla bərabər, Qubada yığcam halda yaşayan ləzgi, yəhudi, tat və digər etnik qrupların nümayəndələri də amansızcasına qətlə yetirilərək basdırılıblar.

Ərazidə yaradılmış Quba Soyqırımı Memorial Kompleksinin 2013-cü il sentyabrın 18-də açılışı olub. Həmin mərasimdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyib: "Sovet dövründə təbii ki, tarix təhrif edildiyi üçün bu həqiqətlər bizdən gizlədilirdi. Uzun illər Azərbaycan xalqının qanını axıdan quldurlar, - onların da mənfur adları orada göstərilir, - Şaumyan və onun kimiləri bizə qəhrəmanlar kimi təqdim edilirdi. Hesab edirəm ki, bu, böyük faciədir. Çünki uzun illər xalqımıza qarşı amansızlıqla vəhşilik törədən ünsürlər sovet tarixində qəhrəman kimi təqdim edilirdi, onların şərəfinə abidələr ucaldılırdı. Yalnız müstəqillik dövründə biz həqiqi ədaləti bərpa etdik. Gözəl şəhərimizi, Bakımızı o abidələrdən təmizlədik və bu gün o yerlərdə gözəl parklar, o cümlədən Sahil parkı yaradılıbdır. Yəni tarix, ədalət zəfər çaldı. Biz bu gün öz tariximizə qayıdırıq. Tarixin bütün məqamlarını bilirik, bilməliyik. Gənc nəsil də bilməlidir ki, xalqımız keçmişdə hansı fəlakətlərlə üz-üzə qalmışdır".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci il yanvarın 18-də "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncam imzalayıb. Sərəncamda deyilir: "Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübut etmişdir".

**Azərbaycan xalqı və dövləti soyqırımı qurbanlarının xatirəsini daim əziz tutur, bütün dünyanı erməni faşizminin iç üzünü görmək üçün bu tarixi hadisələrdən ibrət götürməyə çağırır.**

**president.az**

# TORPAQLARIMIZIN AZAD OLUNMASI NAMİNƏ İGİDLİK GÖSTƏRƏN XÜSUSİ TƏYİNATLILAR

Yarandığı gündən etibarən zəngin xidmət yolu keçərək böyük təcrübə toplayan, döyüş təlimi və xidmət səviyyəsinin artırılması istiqamətində ciddi irəliləyişlərə nail olan, Birinci və İkinci Qarabağ müharibəsində erməni işğalçılarına qarşı gedən döyüş əməliyyatlarında mətinliklə iştirak edən hərbi hissələrimizdən biri də 67987 saylı hərbi hissədir. Vətən müharibəsinin ilk günündən 67987 saylı hərbi hissənin "Kobra" şərti adını daşıyan xüsusi təyinatlıları ön cəbhədə döyüşlərdə idi. Bu döyüşlərdə polkovnik-leytenant Füzuli İmrəliyev dəstə komandiri olaraq, öndə gedib, döyüşçülərə örnək olub.







"Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına layiq görülən, "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilən polkovnik-leytenant F.İmrəliyev Azərbaycanın ərazi bütövlüyünün bərpasının xüsusi təyinatlıların illərlə ürəyində yaşatdığı, uğrunda mübarizə apardığı ən müqəddəs arzu olduğunu vurğulayaraq, dəstənin döyüşlərdə qazandığı uğurlardan, hərbi qulluqçuların mərdliyindən söhbət açdı. O bildirdi ki, Birinci Qarabağ müharibəsində bu hərbi hissədə xidmət etmiş, Daxili Qoşunların ilk şəhidlərindən biri olan baş leytenant Ruber Səfərəliyev, "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülən baş leytenant Mətləb Quliyev, baş leytenant Elşad Yəhyayev, baş leytenant Fəxrəddin Nəcəfov, əsgər Səxavət Məhərrəmovun davamçıları olan hərbçilərimizin peşəkarlığı sayəsində biz Vətən müharibəsinin ilk günlərindən üstünlüyü əldə etdik və ardıcıllıqla son hədəfə qədər uğurla irəlilədik.

44 günlük Vətən müharibəsində hərbi hissənin xüsusi təyinatlıları qəhrəmanlıq nümunələri göstərərək milyonlarla insanın sevgisini, rəğbətini qazandılar. Torpaqlarımızın azad olunması ilə nəticələnən Vətən müharibəsində dəstənin şəhidlik zirvəsinə yüksələn 9 nəfər igid döyüşçüsü – baş leytenant Kamran Kazımov, baş çavuşlar Vüqar Cəfərov, Əsgər Əhmədov, çavuşlar Orxan Ömərov, Ceyhun Rzayev, Tərlan Eyniyev, Hilal İmanzadə, Elvin Məmmədov, kiçik çavuş Mikayıl Mikayılzadə xalqımızın yaddaşında əbədi yaşayacaqlar.

Bu müharibədə xüsusi təyinatlılar düşmənin xeyli sayda canlı qüvvəsini məhv edib, onlarla zirehli texnikasını və şəxsi heyət, silah-sursat daşıyan avtomobilini sıradan çıxarıb, müdafiə postlarını, atəş nöqtələrini dağıdıblar.

Döyüşlər zamanı xüsusi təyinatlılardan 25 nəfər yaralanıb. Bu döyüşçülər yaralansalar da, döyüşü davam etdirib, qorxu bilmədən, cəsurluqla sonacan düşmənin üzərinə həmlə ediblər.

Xüsusi təyinatlılar Murovdağda Ömər yüksəkliyinin və bir çox postun, Cəbrayıl şəhərinin, Xocavənd rayonunun Hadrut qəsəbəsinin, Tuğ, Böyük Tağlar kəndlərinin, Füzuli rayonunun bir sıra kəndlərinin, Xocalı rayonunun Sığnaq, Çanaqçı kəndlərinin, Şuşa şəhərinin işğaldan azad edilməsində şücaət göstəriblər.

Dəstə komandirinin müavini - qərargah rəisi, "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif olunan mayor Nemət Ağayev xüsusi təyinatlıların göstərdiyi döyüş qabiliyyətinin onlarla keçirilən təlim və məşqlərin, təşkil olunan kursların bariz nəticəsi olduğunu söylədi. Onun sözlərinə görə, yüksək döyüş hazırlığını qoruyub saxlamaq məqsədilə şəxsi heyət mütəmadi olaraq real döyüş şəraitinə uyğunlaşdırılmış təlimlərə cəlb olunur. Mayor N.Ağayev qeyd etdi ki, məşğələlər xüsusi-taktiki hazırlıq, hərbi dağçılıq, hərbi topoqrafiya, hərbi mühəndis hazırlığı, ləpirçilik, həmlə-desant hazırlığı mövzularında keçirilir: "Məşğələlər zamanı hər bir hərbi qulluqçunun fərdi hazırlığının artırılmasına önəm verilir. Təlim və məşğələlərin müvafiq plana əsasən müntəzəm olaraq keçirilməsi yalnız bir məqsədə - hərbi qulluqçuların peşə vərdişlərinin, o cümlədən, döyüş qabiliyyətinin daha da təkmilləşdirilməsinə xidmət edir".

Xüsusi təyinatlı bölmənin fəaliyyətinin spesifikliyi barədə danışan dəstə komandiri polkovnik-leytenant F.İmrəliyev bildirdi ki, müxtəlif iqlim şəraitində təlimlərin təşkil olunub keçirilməsi xüsusilə diqqət mərkəzində saxlanılır: "Təsdiq olunmuş müvafiq plana əsasən, məşğələlər bölmənin üzərinə düşən vəzifələrin və tapşırıqların əhəmiyyətinin dərk edilməsi istiqamətində təşkil olunur. Məşğələlər şəxsi heyətin təhkim olunmuş silaha mükəmməl yiyələnməsinə, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsinə, müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı döyüş və digər texnikanın bacarıqla tətbiq edilməsinə, yüksək icraçılığa və sayıqlığın artırılmasına, eləcə də fiziki və psixoloji gərginliyə müvəffəqiyyətlə tab gətirilməsinə istiqamətlənir. Ekstremal şəraitlərdə dayanıqlığın və qətiyyətli fəaliyyətin nümayiş etdirilməsi nəzərdən qaçmayan məsələlərdir".

Vətənin müdafiəsində hərbi qulluqçu olaraq öz borcunu şərəflə yerinə yetirən, torpaqlarımızın azad olunması naminə ölümü gözə alan xüsusi təyinatlılarımızın düşmən üzərində əldə olunan tarixi Qələbədə rolu danılmazdır.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərmiş dəstənin 80 nəfər xüsusi təyinatlısı müxtəlif orden və medallarla təltif edilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hərbi zəfərimizi yüksək qiymətləndirərək öz nitqində deyib: "Şanlı qələbəmiz bizim güclü iradəmizi, xalqımızın güclü əzmini bütün dünyaya nümayiş etdirdi, Azərbaycan dövlətinin gücünü nümayiş etdirdi".

**kapitan Sadıq Rəfiyev**

3_Layout 1 29.03.2021 19:15 Page 1



*Şəhidlərimiz*

# ÜRƏYİ VƏTƏN SEVGİSİ İLƏ DÖYÜNƏN, DÖYÜŞ SINAĞINDAN MƏRDLİKLƏ KEÇƏN LEYTENANT...

2020-ci ilin 27 sentyabr - 9 noyabr tarixlərini əhatə edən və torpaqlarımızın işğalına son qoyulması ilə başa çatan Vətən müharibəsində Azərbaycanın yeni nəsil zabitləri də şərəfli döyüş yolu keçərək, öz şücaətləri, peşəkarlıqları ilə unudulmayacaq bir tarix yazdılar. Həmin zabitlərin sıralarında Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yetirmələrinin olması da qürurverici faktdır.

Leytenant Məmmədov Qəzənfər Habil oğlu Vətən müharibəsində Daxili Qoşunların şəhid olan zabitlərindən ən kiçik rütbəlisidir. O, 23 avqust 1996-cı ildə Gəncə şəhərində anadan olub. Habil Məmmədov və Yeganə Məmmədovanın qurduğu ailənin iki oğul övladından biri və kiçik qardaşı Əlidən bir yaş böyük olan Qəzənfərin orta məktəb illərinin müəyyən hissəsi Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində keçib. Moskvadakı 363 saylı tam orta məktəbdə 5-ci sinfə qədər oxuyub. Sonra Gəncə şəhərindəki Mikayıl Müşfiq adına 14 saylı tam orta məktəbdə təhsilini davam etdirib. Ailəsinin verdiyi məlumata görə, Qəzənfər hər iki məktəbdə tədris olunan fənlər üzrə əla qiymətlər alıb. Riyaziyyat və tarix fənlərinə daha çox maraq göstərib. Öz dünyagörüşünün artırılması yönündə daim çalışıb. Müxtəlif mövzularda kitabların mütaliəsinə xüsusi diqqət yetirib. Orta məktəbin ictimai həyatında da fəal olub. Müəllimlərinin və yoldaşlarının hörmətini qazanıb.

Qəzənfər yeniyetməlik yaşlarından idmanın basketbol növü ilə məşğul olub, yarışlarda uğurla iştirak edərək medal, fəxri fərman və diplomlarla mükafatlandırılıb. Ümumilikdə, Qəzənfərin xarakterinin formalaşmasında sağlam həyat tərzi, idman və təhsil kimi amillər vacib rol oynayıb. Hansı kollektivin üzvü olubsa, orada onun təşkilatçılıq, liderlik, etibarlı yoldaşlıq, dürüstlük, xeyirxahlıq cəhətləri özünü büruzə verib.



Vətənpərvərlik əqidəsinin daşıyıcı olması, hərbi qulluqçulara rəğbət bəsləməsi Qəzənfərin peşə seçiminə təsirsiz qala bilməzdi. O, Azərbaycan Respublikasının Milli Qəhrəmanı Mübariz İbrahimovun şərəfli ömür yolunu Vətən naminə fədakarlığın təzahürü kimi özünə örnək bilirdi.

2014-2018-ci illərdə Qəzənfər Daxili Qoşunların Ali Hərbi Məktəbində hərbi təhsil alıb. 4 il kursant olaraq hərbi peşənin sirlərinə, zabit üçün gərək olan biliklərə və praktiki bacarıqlara yiyələnib. Ali Hərbi Məktəbdə də tədris və təlimdə fəallığına görə müsbət xarakterizə olunub. Onun Ali Hərbi Məktəbin məzunu olaraq leytenant poqonları taxdığı gün həyatının ən sevincli günlərindən biri idi. Özü də Qəzənfərin adı Ali Hərbi Məktəbin ilk buraxılış heyəti məzunlarının siyahısındadır. Daxili Qoşunların layiqli yetirməsi kimi hərbi xidməti dövründə bu etimadı doğruldub.

2018-ci ilin iyun ayından etibarən leytenant Q.Məmmədov qoşunların 99713 saylı hərbi hissəsinə göndərilib, burada xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi bölməsində qrup komandiri vəzifəsinə təyin edilib. Komandiri olduğu qrupun şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsi istiqamətində öz zəhmətini əsirgəməyib. Tabeliyindəki hərbi qulluqçuların təlim-tərbiyəsi prosesində təcrübəli komandirlərin tövsiyələrinə diqqətlə yanaşıb. O, bir komandir kimi şəxsi heyətə həmişə qayğı göstərib, hərbi kollektivdə birliyin qorunub möhkəmləndirilməsində öz məsuliyyətini düzgün dərk edib. Bununla yanaşı, Qəzənfər komandiri olduğu hərbi qulluqçulara fərdi söhbətlər zamanı, nəzəri və praktiki məşğələlərdə vətənpərvərlik əqidəsi aşılayıb. Onları qarşıya qoyula biləcək istənilən döyüş tapşırığının yerinə yetirilməsinə hazırlayıb.

Vətən müharibəsinin başlaması xalqımız və dövlətimiz üçün çətin bir sınaq olsa da, vətəndaşlarımız Respublika Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Vətənin müdafiəsi, işğal edilmiş ərazilərimizin qurtuluşu naminə birləşərək səfərbər olundular.

Döyüşlərin getdiyi ilk günlərdən Daxili Qoşunların şəxsi heyəti də ön cəbhədə düşmənə qarşı qətiyyətlə vuruşub.

Leytenant Q.Məmmədov 99713 saylı hərbi hissədən döyüş bölgəsinə ezam edilən hərbi qulluqçulardan biri kimi tabeliyindəki döyüşçülərlə birgə ayrı-ayrı istiqamətlərdə təcavüzkarlara tutarlı zərbələrlə cavab verib. Füzuli, Xocavənd rayonlarının ərazilərində və Şuşa ətrafında döyüşlər zamanı Qəzənfər qorxmaz zabit, yenilməz iradəyə malik komandir kimi hərbi qulluqçulara inamla rəhbərlik edib.

Zabitlə birgə döyüş yolu keçmiş 99713 saylı hərbi hissənin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Xəyal Yaşılov, baş əsgər Bəxtiyar Həsənov və əsgər Elvin Qurbanəliyevlə telefonla ətraflı söhbətimiz oldu. Onlar Qəzənfər haqqında kədər hissi ilə danışdılar, onun hər bir döyüşçüyə komandirdən çox qardaş münasibəti göstərdiyini söylədilər. Qeyd etdilər ki, zabit döyüş tapşırıqlarını peşəkarcasına yerinə yetirməklə yanaşı, döyüşçülərin həyatını mümkün olduğu dərəcədə qorumaq barədə də düşünürdü. Təhlükəli anlarda ruh düşkünlüyünə yol verilməməsi üçün silahdaşlarını öz güclərinə inanmağa çağırırdı. Cəsurluğu, döyüş şəraitinin ortaya çıxardığı çətinliklərə sinə gərməsi ilə digərlərini də irəli getməyə ruhlandırırdı. Məlumat verildi ki, Şuşaya doğru hərəkət edərkən dağlıq-meşəlik ərazi ilə uzun məsafəli yol qət edilib, düşmənin bəzi postlarından yan keçməyi bacarsalar da, bir neçə dəfə pusquya da düşüblər. Ancaq düşmənin atəş nöqtələrini susduraraq pusqudan



çıxıblar. Şuşa uğrunda döyüşlərdə şəhərin ətrafındakı mühüm mövqelərin ələ keçirilməsi əsas hədəflər olub. Laçın-Şuşa yolunu nəzarətə götürməyə, bununla düşmənin bu istiqamətdən hərəkətini kəsməyə imkan verən əlverişli yüksəkliyin alınması və müdafiəsində leytenant Q.Məmmədovun komandiri olduğu qrupun şəxsi heyəti də öz mətinliyi ilə fərqlənib. Düşmənin həmin yüksəkliyi geri almaq və yolu açmaq cəhdlərinin qarşısı alınıb.

Silahdaşlarının bildirdiklərinə görə, yuxarıda qeyd edilən yüksəklik erməni işğalçıları tərəfindən bir neçə gün tank, top və minaatanlardan şiddətli atəşə məruz qalıb. Noyabrın 6-dan 7-nə keçən gecə leytenant Q.Məmmədov yaxınlığında partlayan mərminin qəlpələrindən ağır yaralanaraq şəhid olub. Noyabrın 9-dək şəhidin cəsədi döyüş zonasından çıxarılıb.

3 saylı Bakı "ASAN xidmət" mərkəzi tərəfindən şəhidin ailəsinə verilən ölüm haqqında şəhadətnamədə leytenant Q.Məmmədovun döyüşdə həlak olduğu tarix 09.11.2020-ci il göstərilib.

Şəhid hərbi qulluqçumuz 12.11.2020-ci ildə Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub.

Məlum olduğu kimi, noyabrın 8-də Şuşanın işğalına son qoyulub, noyabrın 10-da isə döyüşlərin dayandırılması barədə üçtərəfli bəyanat qüvvəyə minib. Azad Şuşaya qədəm basmaq və müharibənin başa çatmasının şahidi olmaq Qəzənfərin qismətinə yazılmayıb.

Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il, 25 dekabr 2020-ci il və 29 dekabr 2020-ci il tarixli sərəncamları ilə leytenant Q.Məmmədov ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Gəncədə fəaliyyət göstərən "Kəpəz" televiziya kanalı tərəfindən şəhid zabitimizə həsr olunan süjet hazırlanıb.

Qəzənfərin məzunu olduğu Gəncədəki 14 saylı tam orta məktəbin kollektivi onun adının əbədiləşdirilməsi təşəbbüsünü irəli sürüb.

Döyüşçü yoldaşının mobil telefonla ön cəbhədə çəkdiyi videoda Qəzənfər nikbin ovqatla müharibədən sağ-salamat və başı uca qayıtmaq arzusunu söyləyir. Həmin videoda döyüşçülər "Allah xalqımızı qorusun! Qarabağ Azərbaycandır!" - deyə səslənirlər. Bu videoya, habelə döyüşçülərin şəkillərinə baxaraq düşünürəm ki, Qəzənfər kimi igidlərin müharibədə keçdikləri sınaqları jurnalistikamız, bədii ədəbiyyatımız, kinematoqrafiyamız dolğun işıqlandıracaq, qeyd edilən mövzu tarixləşdirmək baxımından daha dərindən tədqiq olunacaqdır.

Vətən müharibəsi zamanı azğın işğalçının raketlərlə atəşə məruz qoyduğu və dinc sakinlərini qətlə yetirdiyi Gəncə şəhərində Qəzənfər kimi oğullar daim yetişəcək, Vətənin müdafiəsində onlar da mətin dayanacaqlar.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

---

*Qazilərimiz*

# "Çoxsaylı qəlpə yarası ilə həyatda sağ qalmağıma hələ də inana bilmirəm"

Vətən müharibəsində qəhrəmancasına döyüşərək yaralanmış hərbi qulluqçularımızın həyat və döyüş yolundan bəhs edən "Qazilərimiz" rubrikasının növbəti qəhrəmanı çavuş Məmmədov Zeynal Gülməddin oğludur.

Çavuş Zeynal Məmmədovu hələ 17072 saylı hərbi hissənin patrul taborunda bölük komandirinin tərbiyə işləri üzrə müavini vəzifəsində xidmət etdiyim dövrdən tanıyırdım. Bölüyün nümunəvi xidməti və intizamı ilə fərqlənən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xatirimdə qalmışdı Zeynal. İstər atıcı əsgər, istərsə də manqa komandiri kimi xidmət etdiyi dövrdə bacarığı və son dərəcə məsuliyyəti ilə hər zaman fərqlənib.

Tale elə gətirdi ki, onunla bir də nə az, nə çox, düz 9 ildən sonra Daxili Qoşunların Hərbi Qospitalında görüşdük. Lakin bu dəfə Vətən müharibəsinin qəhrəman döyüşçüsü, Şuşa uğrunda gedən döyüşlərdə ağır yaralanmış qazi hərbi qulluqçumuz kimi qarşıma çıxmışdı Zeynal...

Çavuş Z.Məmmədov 1991-ci il martın 23-də Sumqayıt şəhərində anadan olsa da, Qazaxıstan Respublikasının Aktau şəhərində böyüyüb boya-başa çatıb. Orta təhsilini də məhz Aktaudakı orta məktəblərdən birində alıb. Hələ onuncu sinifdə oxuyarkən ali təhsilini Azərbaycanda almaq üçün doğma Vətənə qayıdan Zeynal bu arzusuna çatmadıqda, heç olmasa hərbi xidmətini Azərbaycan Silahlı Qüvvələrində yerinə yetirməyə qərar verir. Beləliklə, müddətli həqiqi hərbi xidmətini 2010-2011-ci illərdə Daxili Qoşunların 17072 saylı hərbi hissəsində keçir. Uşaq yaşlarından hərbi xidmətə böyük marağı olduğundan, müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra valideynlərinə Qazaxıstana qayıtmaq istəmədiyini bildirən Zeynal qoşunların 16073 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətdə qalaraq, Vətən qarşısında şərəfli borcunu yerinə yetirməkdə davam edib. 2020-ci ilin iyul ayından 25033 saylı hərbi hissədə xidmətini davam etdirən çavuş Z.Məmmədov yaralandığı günədək xüsusi təyinatlı dəstənin həmlə qrupunda atıcı-snayper kimi vəzifə borcunu ləyaqətlə yerinə yetirib. Xidmət etdiyi dövrdə yüksək döyüş hazırlığı, hərbi intizamı və nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçu kimi 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə təltif edilib, eləcə də hərbi hissə komandanlığı tərəfindən bir neçə dəfə mükafatlandırılıb.





İşğal altında olan müqəddəs torpaqlarımızı yağı tapdağından azad görmək və bu amal uğrunda başlayacaq döyüşlərdə iştirak etmək hər bir xüsusi təyinatlı kimi Zeynalın da ən böyük arzusu olub. Məhz buna görə də Vətənə hədsiz məhəbbət və düşmənə sonsuz nifrət hissi ilə döyüşlərə qatılan çavuş Z.Məmmədov Füzuli və Şuşa istiqamətlərində aparılan hərbi əməliyyatlarda fəal iştirak edib: "İlk döyüşümüz 2020-ci il oktyabrın 17-də Füzuli istiqamətində, "Karyer" deyilən ərazidə olub. Burada düşmənin "Beton post" deyilən möhkəmləndirilmiş mövqeləri yerləşirdi. Lakin düşməni məhv edərək möhkəmləndirilmiş postlarını tutmağa müvəffəq olduq. Acı məğlubiyyətlə barışmaq istəməyən ermənilərin olduğumuz mövqeləri minaatan və digər müxtəlif çaplı silahlardan intensiv atəşə tutmalarına baxmayaraq, irəliləməkdə davam edirdik. Buradakı bir yüksəkliyi məhz bizim qrup aldı. Bu döyüşdə dəstəmizin hərbi qulluqçularından yarımqrup komandiri kiçik gizir Məmmədov Anar Zəhəddin oğlu qəhrəmancasına şəhid oldu. Digər silahdaşımız çavuş Abbasov Elvin Mədət oğlu isə ağır yaralandı. Onu da qeyd edim ki, oktyabrın 31-dək qrupumuz, həmçinin, işğaldan azad edilən ərazilərdə axtarış əməliyyatlarında da fəal iştirak edib. Bundan sonra növbəti tapşırığımız Şuşanın azad olunması oldu. Məhz bu baxımdan gizli yollarla düşmənin nəzarətində olan ərazilərdən keçərək, dörd gün Şuşa istiqamətində hərəkət etməli olduq".

Daşlı-qayalı bir ərazidə müdafiə olunaraq döyüşdükləri mövqenin düşmən tankı tərəfindən atəşə tutulması nəticəsində çoxsaylı qəlpə yarası almasına rəğmən, hələ də həyatda sağ qalmasının bir möcüzə olduğunu qeyd edən qazimiz sonda qələbə çaldığımız üçün böyük qürur hissi keçirdiyini deyir: "Bizim tapşırığımız Xankəndidən Şuşa istiqamətində hərəkət edən düşmən qüvvələrinin qarşısını kəsmək idi. Hələ noyabrın 5-də digər qruplarla birgə düşmənin Şuşaya doğru hərəkət edən kolonunu – 1 ədəd PDM, şəxsi heyət və ərzaq daşıyan 5 ədəd digər texnikasını pusquya salıb darmadağın etdik. Bu zaman sağ qalıb qaçmaq istəyən erməni silahlıları da daxil, təxminən 103 nəfər canlı qüvvəsi cəsur döyüşçülərimiz tərəfindən məhv edildi. Bundan sonra bizim qrup öz tapşırığına uyğun vaxt itirmədən hərəkət edərək Xankəndi-Şuşa yolu üzərində özünə mövqe tutmalı idi. Bu məqsədlə qarşımıza gizli bir şəkildə Şuşa ətrafındakı çətin keçilə bilən meşəli, sıldırımlı qayaları aşmaq kimi əsl xüsusi təyinatlı məsləyinə uyğun bir tapşırıq qoyulmuşdu. Üzərimizdəki silah-sursat və bütün ekipirovka ilə düşmənin xəbəri olmadan, çətinliklə olsa da, yüksəklikdə özümüzə mövqe tuta bildik.

Noyabrın 6-da təxminən saat 11:00-dan etibarən artıq Şuşa ətrafında qızğın döyüş gedirdi. Qrupumuz ermənilərin Şuşadakı silahlılara köməyə gələn qüvvəsinin qarşısını qətiyyətlə alırdı. Dəstəmizin cəsur döyüşçülərindən baş çavuş Kənan Kərimov və çavuş Zamiq Ağayev RPQ-7 qumbaraatanı ilə ermənilərin 2 ədəd tankını məhv etdilər. Düşmənin canlı qüvvəsini isə biçib tökürdük. Mən özüm snayperlə düşmənin xeyli sayda canlı qüvvəsini cəhənnəmə vasil etdim. Bir müddət sonra bizimlə açıq döyüşə girməkdən qorxan düşmən silah-sursatını da atıb qaçmağa başladı. Bundan sonra uzaq məsafədən mövqelərimizi tank və minaatanlardan atəşə tutmağa davam etdilər. Elə bu zaman düşmən tankının atdığı mərmi yaxınlığımızdakı böyük qaya daşına dəydi. Bu vaxt sağımda vuruşan dəstəmizin əslən Xaçmaz rayonundan olan cəsur döyüşçüsü əsgər* Seyfullayev Fərid Xeyrulla oğlu tank mərmisinin və qaya daşının qarışıq qəlpələrindən aldığı ağır yaradan şəhid oldu. Mən isə çoxsaylı qəlpə yarası aldım. Aramızda heç bir metr də məsafə olmazdı. Bir anlıq şoka düşmüşdüm. Lakin özümə gələndən sonra baxdım ki, əlim və ayağım qan içindədir. Yaralı vəziyyətdə meşə istiqamətində təxminən yüz metrə kimi süründüm. Sonra əsgər* Qafqaz Hüseynov və digər döyüşçü yoldaşlarım məni güllə və mərmi yağışı altından çıxarıb, yaralılarımızın saxlanıldığı otel kimi bir evə gətirdilər. 3 gün burada qaldıqdan sonra, noyabrın 9-u axşam oradan təxliyyə olunduq. Əvvəlcə bizi Hadrut qəsəbəsinə, orada tibbi yardım göstərildikdən sonra Füzuli Rayon Xəstəxanasına, oradan isə Bakıya, Daxili Qoşunların Hərbi Qospitalına gətirdilər. Nə deyim, aldığım çoxsaylı qəlpə yarası ilə həyatda sağ qalmağıma hələ də inana bilmirəm. Şükürlər olsun ki, həkimlərimizin sayəsində sağlamlığım qismən bərpa olunub. Lakin tam sağalmağım üçün ambulator müalicəmi indi də davam etdirirəm.

Əsas odur ki, işğal olunmuş müqəddəs yurd yerlərimizi yağı düşmən tapdağından azad edib, qələbə çaldıq".

Azərbaycan Respublikası Prezidentinin 18.12.2020-ci il tarixli, 25.12.2020-ci il tarixli, 29.12.2020-ci il tarixli müvafiq sərəncamları ilə çavuş Məmmədov Zeynal Gülməddin oğlu "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

25033 saylı hərbi hissədə "Gürzə" şərti adını daşıyan xüsusi təyinatlı dəstənin komandiri vəzifəsini icra edən, "Zəfər" ordeni, "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmiş kapitan Cavid Tağıyev (Vətən müharibəsi zamanı Şuşa istiqamətində gedən döyüşlərdə yaralanıb) dəstədə atıcı-snayper kimi xidmət edən çavuş Z.Məmmədovu vətənpərvər döyüşçü, eyni zamanda, hərbçi peşəsinin vurğunu olan nümunəvi hərbi qulluqçu kimi xarakterizə etdi: "Dəstəmizin cəsur qazi hərbi qulluqçularından biri də çavuş Zeynal Məmmədovdur.

Dəstəmizdə az bir müddətdə xidmət etməsinə baxmayaraq, nümunəvi xidməti, çalışqanlığı və yüksək intizamı ilə kollektivin dərin rəğbətini qazanmağa müvəffəq olub. Olduqca vətənpərvər, vəzifə borcunu layiqincə yerinə yetirən xüsusi təyinatlı kimi fəaliyyəti hər zaman müsbət qiymətləndirilib. İgid döyüşçümüz Vətən müharibəsində qəhrəmanlıq nümunələri göstərməklə, komandirlərinin ona olan etimadını bir daha doğrultmuş oldu. Zeynalın timsalında bütün qazi hərbi qulluqçularımıza tezliklə sağlamlıqlarına qovuşmalarını arzulayırıq".

Sonda biz də dəstə komandirinin arzularına qoşularaq, adını Vətənimizin şanlı tarixinə qızıl hərflərlə yazan igid qazimizə bundan sonrakı həyatında ancaq uğurlar diləyirik.

**mayor Anar Əhmədov**

4_Layout 1 30.03.2021 10:53 Page 1



# Yeni əsrin təhdidi: “Hibrid müharibə” nədir?

Müharibələrin tarixi elə bəşəriyyət qədər qədim olsa da, XXI əsrdə ona bir çox yeni çalar əlavə olunub. Buna əsas səbəb elm və texnologiyaların sürətli inkişafı, elmi-texniki tərəqqinin nailiyyətlərinin bir çox sahə kimi, hərb sənətinə də sirayət etməsidir. İnformasiya texnologiyaları əsrində aparılan müharibələr həm də informasiya məkanını əhatə edir. Məhz virtual müharibələr yeni termin – hibrid müharibə anlayışının meydana gəlməsinə səbəb olub.

Son dövrlərdə beynəlxalq münasibətlərdə baş verən gərgin hadisələr, xüsusilə Ukrayna və Suriya ətrafında yaranmış böhranla əlaqədar hibrid müharibə terminologiyası siyasətçilərin nitqlərində, konseptual sənədlərdə öz əksini tapıb. Beynəlxalq siyasətdə qarşıdurmanın iki əsas güc mərkəzi - həm Qərb, xüsusilə, ABŞ, həm də Rusiya Federasiyası milli təhlükəsizliyə dair sənədlərdə artıq bu termindən rəsmi surətdə istifadə edirlər. Məsələn, Rusiya Federasiyasının 2014-cü il dekabrın 26-da qəbul olunan yeni hərbi doktrinasında bu ölkəyə qarşı aparılan və ya aparıla biləcək hibrid müharibəsi əsas təhdidlərdən biri kimi göstərilib.

Hibrid müharibəsi taktikası nəzəriyyələrini Rusiya Müdafiə Nazirliyinin Baş Qərargahı 2013-cü ildən etibarən daha fəal şəkildə araşdırmağa başlayıb. Bəzi rusiyalı alimlərin fikrincə, hazırda Rusiyaya qarşı aparılan hibrid müharibə iqtisadi, informasiya, mənəvi sahələrə nüfuz etməkdədir. Qərbin apardığı hibrid müharibə tərəflərin informasiya-psixoloji qarşıdurması olmaqla, informasiya məkanında başlayır, daha sonra ictimai rəyə psixoloji təsir göstərməklə davam edir. Bunun ardınca siyasi aksiyalar, xaos, “rəngli” inqilablar baş verir. Əgər bütün bunlar nəticə vermirsə, o halda Ukraynada olduğu kimi, özündə hibrid müharibəsinin əlamətlərini ehtiva edən vətəndaş müharibəsi başlayır.

Analitiklər gələcək müharibələrin məhz hibrid müharibə olacağını proqnozlaşdırırlar. ABŞ hərbi texnoloqları xüsusilə İraq və Əfqanıstan ərazisində bəzi dövlətlərin və terror təşkilatlarının koalisiya üzvlərinə qarşı latent (gizli) texnologiyalardan istifadə etməklə hibrid müharibə aparmasından narahatlıqlarını ifadə ediblər. Məhz bu məqsədlə, ABŞ öz yurisdiksiyasına daxil olan Quam adaları və Puerto-Riko yerli və federal hüquq-mühafizə orqanları üçün terrorçu və qiyamçı qruplaşmalara qarşı təlimlər həyata keçirir.






ABŞ Dəniz Piyadalarının keçmiş zabiti, hazırda isə Pentaqonun elmi əməkdaşı Frenk Hofman hibrid müharibə anlayışını siyasi məqsədlərə nail olmaq üçün düşmənin bir anda silahların mürəkkəb kombinasiyası, partizan müharibəsi, terrorçuluq və döyüş meydanında cinayətkar davranışları əhatə edən fəaliyyətinin məcmusu kimi təsvir edir. Hibrid müharibəsi konsepsiyasının əsas müəlliflərindən olan F.Hofmanın fikrincə, bu müharibədə qalib gəlmək üçün ordu, KİV, qurban ölkənin QHT-lərindən istifadə etmək, lazım gələrsə, cinayətkar dəstələrin rəhbərlərini ələ almaq, siyasi qətllər və terror aktları da törətmək olar.

ABŞ Müdafiə Departamentinin strateji planlaşdırma sənədlərində ölkənin üzləşdiyi qeyri-dövlət və dövlətlər tərəfindən dəstəklənən subyektlərin Amerikanın milli təhlükəsizliyinə qarşı yaratdıqları əsas təhdidlər kimi bunlar göstərilir: kompüter şəbəkələri və peyk hücumları, yer-hava tipli raketlər, informasiya və media vasitəsilə manipulyasiya, kimyəvi, bioloji, radioaktiv, nüvə və yüksək dərəcəli partlama dərəcəsinə malik olan maddələr. ABŞ Konqresi bununla ələqədar Baş Hesablama Ofisinə müraciət edərək, hibrid müharibə anlayışının Müdafiə Departamenti tərəfindən nə dərəcədə düzgün təsnif olunduğunu, bu növ müharibənin digərlərindən nə ilə fərqləndiyini aydınlaşdırmağı tələb edib.

Lakin qeyd etmək yerinə düşərdi ki, Müdafiə Departamenti ayrı-ayrı sənədlərdə hibrid müharibə terminindən istifadə etsə də, bu anlayışı öz doktrinasına daxil etməyib. ABŞ Xüsusi Əməliyyatlar Komandanlığı ənənəvi anlayışların əməliyyat şəraitini əks etdirmək üçün qənaətbəxş olmasını əsas gətirərək, hibrid müharibə terminindən istifadə etmir.

Hibrid müharibəsi adi, kiçik və kibermüharibəni birləşdirən hərbi strategiyadır. Habelə, hibrid müharibəsi termini Qərbdə CBRN adlandırılan nüvə, bioloji və kimyəvi silah növləri, eləcə də əldəqayırma partlayıcı maddələr və informasiya müharibəsi vasitəsilə edilən hücumu ifadə etmək üçün də işlədilir. Münaqişələrə belə yanaşma müharibənin güclü və mürəkkəb növünə aid edilir.

Qərb mütəxəssislərindən ABŞ Dəniz Piyadaları Korpusunun zabiti Bill Nemettin fikrincə, bu, “müasir texnologiyaları və yeni səfərbərlik metodlarını birləşdirən partizan müharibəsinin müasir növüdür”.

Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin əməkdaşı Neytan Frayer hibrid müharibəsinin özündə ehtiva etdiyi təhdidləri bu qaydada müəyyənləşdirib: 1) ənənəvi; 2) qeyri-standart; 3) fəlakət həddində olan terrorçuluq; 4) hərbi qüvvə baxımından üstünlüyə qarşı durmaq üçün texnologiyaların istifadə olunduğu dağıdıcı müharibələr.

ABŞ ordusunun polkovniki Cek Mak Kuen hibrid müharibəsini asimmetrik müharibədə əsas metod kimi qəbul edir. Onun fikrincə, bu cür müharibə 3 növ döyüş meydanında – münaqişə zonasının əhalisi, arxa cəbhənin əhalisi və beynəlxalq ictimaiyyət arasında aparıla bilər.

“Təsadüfi partizan” kitabının müəllifi Devid Kilkallen isə qeyd edir ki, hibrid müharibə müasir münaqişələrin ifadə olunması üçün işlədilən ən yaxşı tərifdir. Onun fikrincə, bu termin partizan və vətəndaş müharibələrinin birləşməsini, habelə qiyam və terrorçuluğu özündə ehtiva edir.

ABŞ Hərbi-Dəniz Qüvvələri katibinin müavini Robert Orton Vork isə iddia edir ki, düşmən qoşunları mülki əhali arasında gizlənən hibrid hərbi qulluqçulardan istifadə edə bilər.

Rusiya üzrə mütəxəssis Keyr Cayls iddia edir ki, hibrid müharibə konsepsiyası yeni deyil. Caylsın fikrincə, onun yalnız bəzi aspektləri-məsələn, kiberhücumlar və sosial mediya formaca yeni ola bilər.

BBC-nin diplomatik məsələlər üzrə şərhçisi C.Markus isə hesab edir ki, Avropa siyasətçiləri Rusiyanın Ukraynaya qarşı tətbiq etdiyi hərbi əməliyyat formalarının gələcəkdə öz ölkələrinə qarşı istifadə oluna biləcəyindən ehtiyat edirlər. Həmin siyasətçilər hərbi əməliyyatların bu yeni növünü hibrid müharibəsi adlandırırlar. Onların anlayışında hibrid müharibəsi öz iştirakını təkzib etməklə açıq və gizli hərbi tədbirlərin, habelə, təxribatların məcmusudur.

Hibrid müharibəsinə ən parlaq nümunələrdən biri 2006-cı ildə “Hizbullah”ın Livanda apardığı müharibə zamanı fəaliyyətidir. Həmin münaqişə zamanı “Hizbullah” İsrail ordusunun hücumlarını gizli mövqelərdən və yeraltı tunellərdən istifadə etməklə dəf edə bilmişdi. Məhz bu metoddan istifadə nəticəsində İsrail Müdafiə Ordusu “Hizbullah” mövqelərinə iki həftə davam edən hücumlar zamanı Livan-İsrail sərhədboyu məntəqələrin heç birini ələ keçirə bilməmişdi. Qeyd etmək yerinə düşər ki, Vyetnam müharibəsi zamanı ABŞ ordusuna qarşı müharibə aparan Cənubi Vyetnam Milli Azadlıq Cəbhəsi də bu taktikadan geniş istifadə etmişdi.

ABŞ-ın hibrid müharibə strategiyası işləyib-hazırlamasından əlavə, həm də ondan dünyanın bir sıra ölkələrinə qarşı istifadə etməsi faktı dünyanın bir sıra analitiklərinin başlıca müzakirə mövzularından biridir. Belə ki, Qərb təhlilçilərinin fikrincə, Meksika və Kolumbiyada Vaşinqtondan asılı hökumətləri daimi gərginlikdə saxlamaq üçün ABŞ narkokartellərdən istifadə edir. Liviya və Suriyada isə ABŞ eyni məqsədlə terror qruplarını himayə edir. Gürcüstan və Ukraynada “rəngli” inqilabların həyata keçirilməsi üçün diplomatiya, QHT və informasiya resurslarından istifadə edib.

Ukrayna hadisələri fonunda yaranmış Rusiya – Qərb qarşıdurmasında tərəflər biri digərini ona qarşı hibrid müharibəsi aparmaqda ittiham edirlər. Hibrid müharibəsinin əsas ön cəbhəsi kimi isə informasiya müharibəsi göstərilir. Qərb hərbi-siyasi dairələri xüsusilə Krımın ilhaq edilməsindən sonra Rusiyanı hibrid müharibəsi taktikası həyata keçirməkdə ittiham etməyə başlamışlar.

Rusiyapərəst analitiklər Rusiyaya qarşı hibrid müharibəsi aparılmasını əslində ABŞ-ın öz geosiyasi rəqibini zəifləmək üçün bir vasitə hesab edirlər. Bununla da ABŞ “Soyuq müharibə” dövrünün reallıqlarından birdəfəlik uzaqlaşmaq, beynəlxalq münasibətlər sisteminin birqütblü olmasını, dünyanın vahid güc mərkəzindən idarə edildiyini isbat etməyə çalışır. Lakin ən əsas məqsəd Rusiyanın Böyük Avrasiya (Avropa-Rusiya-Asiya) layihəsinə sədd çəkmək, Ukraynanı həmin planda mümkün körpü rolunu oynamaqdan məhrum etməkdir.

Bütün bu sadalananlar fonunda ümid etmək olar ki, qarşılıqlı iqtisadi və enerji maraqları geosiyasi və hərbi qarşıdurmadan daha üstün mövqedə olacaq və Qərblə Rusiya arasında hazırda qızğın şəkildə aparılan hibrid müharibəsinin səngiməsinə gətirib çıxaracaq.

**Ordu.az**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### “Active Denial System” - gələcəyin silahıdır

“Active Denial System” (Aktiv rədd sistemi) ABŞ ordusu üçün hazırlanan ən maraqlı öldürücü olmayan silahlardan biridir. Bu barədə “Ordu.az” saytı xarici mənbələrə istinadən xəbər verir ki, sistem iğtişaşlarla mübarizə aparmaq üçün hazırlanıb. O, görünməz elektromaqnit şüalarını ötürməklə insanların dərisində yanma hissi yaradan və öldürücü olmayan enerji silahıdır. “Active Denial System” insanlarda ağrılara səbəb olur və onları sistemin istifadə olunduğu ərazidən qaçmağa və oranı tərk etməyə təşviq edir. Hərbi səlahiyyətlilər bu sistemi “Əlvida effekti” də adlandırırlar.

İnsanların dərisində yanma hissi yaratmaq qabiliyyətinə görə “Active Denial System” həm də “istilik şüası” da adlanır. ABŞ hərbçiləri üçün bu sistemi “Raytheon” şirkəti inkişaf etdirir. Müasir sistem modelləri 95 GHz-də elektromaqnit şüalarının ötürülməsi üçün sınaqdan keçirilir, bu da mikrodalğalı sobadan istifadə edilən 2.45 GHz-də olan radiasiyadan dəfələrlə çoxdur. Bu sistem insan dərisindəki su molekullarını 500 metr məsafədən 60-70 dərəcəyə qədər istiləşdirə bilir.



“Active Denial System” hərbi və hüquq-mühafizə orqanlarına qəzəbli və təhlükəli insan kütlələrini dağıtmaqda kömək etmək üçün hazırlanır. Sistem insanları yandırmır, yalnız dərinin kiçik bir hissəsinə təsir edir, lakin bu, insanlarda müvəqqəti ağrılara səbəb olur.

Bundan əlavə, “Active Denial System” maqnit lentinə və ya çip karta elektromaqnit dalğası göndərərək bank kartlarının işinə maneə də törədə bilər.

Bununla birlikdə, “Active Denial System” dünyanın hər yerində hərbi və hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən böyük maraq oyadıb. Bir çox təhlükəsizlik mütəxəssisi, sistemin gözyaşardıcı qaz, su topları və rezin güllələr kimi digər izdihama nəzarət metodları ilə birlikdə istifadəsini gözləyir.

### “Elbit Systems” Almaniyaya gecəgörmə cihazları tədarük edəcək

Almaniya Daxili İşlər Nazirliyinin Satınalma Bürosu hüquq-mühafizə orqanlarının ehtiyaclarını qarşılamaq üçün İsrailin “Elbit Systems” şirkətinə “XACT nv33” gecəgörmə cihazları (NVG) sifariş edib. Bu barədə “Poliqon” saytı “Elbit Systems” şirkətinə istinadən məlumat verib.



“XACT nv33” NVG müxtəlif tipli dəbilqələrə quraşdırıla, başa taxıla və ya əldə istifadə edilə bilən yüngül görüntü gücləndirici durbindir. Cihazın kompakt ölçüdə və yüngül olması ondan qaranlıqda nəqliyyat vasitəsi sürmək üçün istifadə etməyə şərait yaradır.

Hazırda bu məhsuldan Almaniya, Hollandiya, İsrail, Avstraliya və bir sıra NATO ölkələrinin silahlı qüvvələri istifadə edirlər.

*Həkim məsləhəti*

## LİFLİ QİDALARIN QƏBULU İNSANI TOX SAXLAYIR VƏ ARTIQ ÇƏKİDƏN AZAD OLMAĞA KÖMƏK EDİR

Sağlamlıq əslində sağlam və qatqıların olmadığı qidalardan başlayır. Sağlam qidalanmanın əsasını təşkil edən komponentlərdən biri lifli qidalardır.

Aparılan tədqiqatlara əsasən, gün ərzində hər kəsə 12-33 qram arasında lif qəbul etmək məsləhət görülür. Lifli məhsullarla qidalanma qan təzyiqini normaya salır, xolesterol səviyyəsini tənzimləyir, həmçinin, mədə-bağırsaq sisteminin sağlamlığına müsbət təsir göstərir. Meyvə-tərəvəz və paxlalı bitkilərdə olan bəzi lif növləri orqanizmdə kalsium kimi əhəmiyyətli minerralların sorulmasına kömək edir.



Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun həkim-terapevti Taleh Abbasov **AZƏRTAC**-a deyib: “Lifli qidalar əsasən avakado, əncir və paxlalı bitkilərin tərkibində daha çox olur. Artıq çəkidən azad olmağa, hormonal sistemin tənzimlənməsinə kömək edir. Yaşından, cinsindən asılı olmayaraq, hər kəsin lifli qidalar qəbul etməsi gün ərzində metobolizmi sürətləndirir”.

Lifli qidaların bir xeyri də insanı tox tutmasıdır. Onun sayəsində həm də düzgün qaydada artıq kilolardan xilas olmaq mümkündür. Qəbul edilən hər 1000 kalori üçün 14 qram lif tövsiyə olunur. Bu növ qidalar maddələr mübadiləsini yaxşılaşdırır, eyni zamanda ürək xəstəliklərinin inkişafının qarşısını alır.

Mütəxəssislər gündəlik qida rasionunda lifli qidalara yer ayırmağın vacibliyini qeyd edirlər. Onların fikrincə, bu növ məhsullara üstünlük vermək sağlam həyat tərzi sürməyə səbəb olur.

## Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı polkovnik Alışan Musayevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların komandanlığı gizir Asiman Zeynallıya **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların komandanlığı baş çavuş Taleh Quliyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

25033 saylı hərbi hissənin şəxsi heyəti polkovnik Elçin Məmmədova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

67987 saylı hərbi hissənin şəxsi heyəti baş leytenant Nail Nəzirova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17072 saylı hərbi hissənin şəxsi heyəti baş leytenant Namil Səfərova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

25033 saylı hərbi hissənin şəxsi heyəti gizir Aydın Rzayevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q.Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000